# Kiçik yaşlı məktəblilərin təlimə məsuliyyətli münasibətinin formalaşdırılmasında sinif rəhbəri və valideynin birgə əməkdaşlığı

**Şəms Yusifova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** shems2293@mail.ru

**Rəyçilər:** p.ü.e.d., prof. A.N. Abbasov,
p.ü.f.d. İ.B. Əmirəliyeva

**Açar sözlər:** təlim, tərbiyə, inkişaf, qarşılıqlı, əlaqə
**Ключевые слова:** обучение, воспитание, развитие, взаимный, контакт
**Key words:** training, upbringing, development, mutual, connection

Kiçik məktəb yaşı 6-10 yaşı əhatə edir. Bu dövrün başlıca xüsusiyyətləri-uşağın məktəbli olması, əsas fəaliyyətini təlim fəaliyyəti təşkil etməsindən ibarətdir. Bu dövrdə inkişafetdirici oyunlar təlimdən sonra ikinci yeri tutur. Bu dövr bir növ keçid dövrü olub, məktəbəqədər dövrün xüsusiyyətləri ilə məktəblinin xüsusiyyətlərini birləşdirir. Şəxsiyyətin bir çox psixi xüsusiyyətlərinin əsası məhz bu dövrdə qoyulur. Məktəbə təzəcə daxil olduğu vaxt rastlaşdığı çətinliklər kiçik məktəb yaşının sonunda aradan qalxmış olur, təlim fəaliyyəti oyundan tamamilə fərqli xüsusiyyətlərini əldə edir.

Məktəbə təzəcə daxil olan uşaq bir sıra problemlərlə qarşılaşır. O, artıq şagirddir. Buna görə də şagirdlər üçün nəzərdə tutulan qaydalara əməl etməli, həmişə eyni vaxtda zənglə sinfə girib sinifdən çıxmalı, bütün dərs ərzində sakit oturmalı, sinifdən çıxmaq və ora daxil olmaq üçün müəllimdən icazə almalı, onun bütün tələb və göstərişlərini yerinə yetirməli olur. Bunlarla yanaşı olaraq uşağın ünsiyyət sahəsi genişlənir, tamamilə yeni adamlarla: müəllimlər və həmyaşıdları ilə rastlaşır, onlarla birgə fəaliyyət zamanı ünsiyyətə girməli olur. Müəllim onun yeni nüfuz sahəsinə çevrilir. Tədricən sinif kollektivində qarşılıqlı münasibətlər formalaşır. Bütün bunlara uşaqlar asanlıqla alışa bilmirlər. Burada uşağın məktəbə psixoloji hazırlığından çox şey asılı olur.

Məktəb təcrübəsi göstərir ki, məktəbə yeni daxil olmuş uşaq öz həyat tərzində, gün rejimində, onu əhatə edənlərlə münasibətində dəyişiklik etmədən məktəb həyatına uyğunlaşa bilmir. Ona görə də məktəb həyatı uşaq üçün cansıxıcı olur, bu vəziyyətdən çıxmaqda çətinlik çəkir. Bu cür çətinliklərin aradan qaldırılması və uşağın öz həyat tərzi və münasibətlərində dəyişiklik etməsi işində müəllimlərin üzərinə ciddi vəzifələr düşür. Müəllimin qayğıkeş yanaşması bu prosesin asanlıqla keçməsinə səbəb olur.

Məktəbə təzəcə gələn uşaqların qarşılaşdıqları çətinliklərdən biri də ondan ibarətdir ki, ilk dəfə olaraq məktəbdə həyata keçirməli olduqları dərinləşmiş məhsuldar əqli iş onlardan hövsələ, emosiyalarını saxlaya bilmək, təbii hərəki fəallığı tənzim etməyi, diqqətini tədris məsələləri üzərində cəmləşdirməyi və saxlaya bilməyi tələb edir. Lakin kiçik məktəblilərin heç də hamısı bunlara əməl edə bilmirlər. Onlardan çoxu asanlıqla və tez yorulurlar. Xüsusilə birinci sinfə qəbul olunmuş uşaqlar öz davranışlarını tənzim etməkdə çətinlik çəkirlər. Birinci sinif şagirdlərinin çoxunda uzun müddət özünü eyni vəziyyətdə saxlamaq, özünü idarə etmək üçün iradi güc çatmır. Məktəbdə məşğələ zamanı müəllim uşaqlara suallar verir, onları fikirləşməyə məcbur edir. Eyni iş ailədə də təkrar olunur. Valideyn uşaqdan ev tapşırıqlarını yerinə yetirməyi tələb edir. Bu cür gərgin əqli iş uşaqları asanlıqla yorur. Psixoloqlar bunun

səbəbini uşağın məhz əqli işdən yorulması ilə deyil, fiziki özünütənzimi həyata keçirə bilməmələri ilə izah edirlər. Bütün bunlara əsasən kiçik yaşlı məktəblilərin təlimə məsuliyyətli münasibətinin formalaşdırılması üçün müəllim və valideyn əməkdaşlığı sistemli və mütəşəkkil olmalıdır.

Məsuliyyət insanın özünü dərk etməsi ilə bağlıdır. İnsan öz hüquq və vəzifələrini nə qədər şüurlu surətdə dərk edərsə onlara bir o qədər də məsuliyyətlə yanaşır.

Məsuliyyət hissi planlı və mütəşəkkil şəkildə əsasən məktəb illərində inkişaf etdirilir. İstər təlim, istərsə də tərbiyə işlərinin məzmunu və quruluşu məsuliyyət hissinin inkişafı üçün imkanlar yaradır. Hələ məktəbə qədəm qoyduğu ilk günlərdən şagird məktəb rejiminə tabe olmalı, müəyyən qaydalara riayət etməlidir.

Şagird şəxsiyyətinin formalaşması məsələsində isə məktəblə valideyn əlaqəsi, məktəblər və onun ən aparıcı qüvvəsi olan müəllimlərdən böyük məsuliyyət tələb edir. Gənc nəslin tərbiyəsi daima diqqət mərkəzində olmuşdur. Tarix boyunca hər bir xalq özünün müsbət və ideal hesab etdiyi nə varsa, hamısını gənc nəslə ötürmək üçün əlindən gələni etmişdir. Hazırda təhsil sahəsində gedən əsas islahatlardan biri də təkmilləşmə yeniləşmə prosesinə daxil olan müəllim-valideyn münasibətləri istiqamətində məktəbin yenidən qurulmasıdır.

Məktəb təlim tərbiyə ocağıdır. Məktəbdə əsas məqsəd cəmiyyət üçün savadlı vətənsevər yüksək mənliyə və ləyaqətə malik əxlaqi və mənəvi dəyərlərə sahib olan şəxsiyyət yetişdirməkdir. Bu cür şəxsiyyətlər o zaman tam formalaşır ki müəllim-valideyn, məktəb-valideyn münasibətlərinin vəhdəti ön planda olsun.

Məktəbin ailələrlə əlbir işinin müxtəlif forma və metodları var. Bunlar aşağıdakılardır: a) fərdi əlaqə formaları. Valideynlərlə ən qədim və ən səmərəli əlaqə forması fərdi əlaqədir. Bu əlaqə zamanı müəllim hər bir valideyni ayrılıqda məktəbə çağırır, uşağın təlim işlərinə kömək və ailə tərbiyəsi barədə valideynlərə məsləhət verir. Valideyn də öz növbəsində ailə tərbiyəsində çəkdiyi çətinliklərlə bağlı müəllimlə fikir mübadiləsində olur. Beləliklə, uşağın tərbiyəsi üçün düzgün hərəkət xətti müəyyənləşir. Belə əlaqələrdə şagirdlər özləri də müəllimlə ailə arasında əlaqələndirici, yəni müəllimin tapşırıqlarını valideynlərə çatdıran rolunu oynayır. Pedaqoji təcrübədə nisbətən geniş yayılmış fərdi əlaqə formalarına aşağıdakılar daxildir:

— Təhsildən yayınan, dərslərinə müntəzəm davam etməyən şagirdlərin problemini, onu məktəbdən uzaqlaşdıran səbəbləri müəyyənləşdirmək və kömək görsətmək üçün müəllimin, sinif rəhbərinin ailəyə getməsi; bu halda, bir tərəfdən şagirdin ailə şəraiti, ailədaxili münasibətlər, ailədə tərbiyə işinin qoyuluşu haqqında məlumat toplanır, digər tərəfdən isə uşağın təlim-tərbiyəsi ilə bağlı valideynlərlə söhbət və məsləhətləşmələr aparılır, birgə hərəkət xətti müəyyən edilir, valideynlərə pedaqoji məsləhətlər verilir.

— Valideynlərin, ictimai təşkilat nümayəndələrinin məktəbə dəvət edilməsi: bu zaman valideynləri danlamaq, uşaqdan şikayət etmək yox, hər hansı konkret pedaqoji hadisənin (təlimə məsuliyyətsiz münasibətin, intizamsızlığın və s. halların) səbəblərini valideynlə birlikdə təhlil etmək, konkret çıxış yolu tapmaqda kömək etmək lazımdır. Valideynləri məktəbə yalnız xoşagəlməz hallar üçün deyil, şagirdin təlim və tərbiyəsindəki uğurlar, müsbət dəyişikliklər, yaxud, müəyyən tədbirlərlə əlaqədar da dəvət etmək olar.

— Məktəbdə və ya sinifdə "Açıq qapı" günlərinin keçirilməsi: bu halda əvvəlcədən müəyyən edilmiş vaxtda (ayda və ya rübdə bir gün) valideynlər məktəbə gələrək istənilən müəllimlə görüşüb övladı barədə söhbət aparır, məsləhət alırlar. Məktəbli kitabçası, yaxud məktub vasitəsi ilə əlaqə: müəllim şagirdin təlim-tərbiyəsi ilə bağlı onun məktəbli kitabçasında, yaxud ayrıca vərəqdə qeydlər edir, valideynlərə lazımi göstəriş və məsləhətlər

verir.

— Telefon vasitəsi ilə əlaqə: şagird haqqında müəyyən informasiya mübadiləsi məqsədi ilə müəllim (sinif rəhbəri) və valideynlər bir-biri ilə telefon əlaqəsi saxlayırlar. b) qrup halında əlaqə formaları. Bu əlaqə valideynlərə pedaqoji – psixoloji bilikləri çatdırmaq məqsədi daşıyır. Həmin məqsədlə məktəbdə valideyn universitetləri və lektoriyalar (mühazirələr) yaratmaq mümkündür.

Həmin universitetlərin nəzdində şagirdlərin yaş xüsusiyyətlərinə uyğun olaraq “Kiçik yaşlı məktəblilər”, “Yeniyetmələr”, “Böyük məktəblilər” qruplarını yaratmaq və müvafiq olaraq valideynləri həmin qruplara cəlb etmək faydalıdır. Lektoriya üçün aktual mövzular seçilməlidir.

Qeyd edək ki, əvvəllər bütün valideyn yığıncaqlarının mövzusu ancaq əxlaq tərbiyəsi olurdu. İndi zaman çoxçeşidli mövzular tələb edir. Məsələn, indi dərs ilinin əvvəlində keçirilən lektoriyanın mövzusu “Təhsildə yeniliklər”, “Yeni təyin olunmuş müəllimlərlə tanışlıq” ola bilər. Növbəti dəfələrdə günün tələbi ilə səsləşən “Uşağın ailədə bir günü”, “Siz öz uşağınızı anlaya bilirsinizmi?”, “Ailədə müstəqilliyin xeyri və ziyanı”, “İnformasiya kommunikasiya texnologiyaları və uşaq”, “Məktəbli internet saytlarında” və s. mövzularda mühazirələr keçirmək valideynlərin müasir tələblər baxımından savadlanmasına və evdə övladı ilə düzgün pedaqoji istiqamətdə məşğul olmasına kömək edir.

Bundan əlavə, şagirdlərin müxtəlif sinifdənxaric işlərdə iştirakı ilə bağlı bütün valideynləri deyil, yalnız aidiyyəti olanları dəvət edib onlarla söhbət, müzakirə aparmaq, işləmək qrup halında işlərə daxildir. c) kollektiv əlaqə. Bu əlaqənin əsas nümunəsi ümumvalideyn iclasıdır. Hər rübün və tədirs ilinin yekununda bu iclaslar keçirilir. Hər bir müəllim və sinif rəhbəri bu iclaslara ciddi hazırlaşmalı, rübün, yaxud tədris ilinin yekunlarını çatdırmaqla bərabər, həm də valideynlərə pedoqoji biliklər verməlidir.

Bu iclaslarda ailə tərbiyəsinin müxtəlif məsələlərini nümunə gətirmək də faydalıdır. Kollektiv əlaqənin digər forması valideyn yığıncaqlarıdır. İl ərzində valideynlərlə rübdən–rübə kollektiv görüşmək fayda vermir; rübün ortalarında valideyn yığıncaqları keçirib ailə tərbiyəsinin müxtəlif problemləri ilə bağlı müzakirə, yaxud müsahibə keçirməyə, valideynlərin qarşılıqlı təcrübə mübadiləsini təşkil etməyə ehtiyac duyulur. Odur ki, müvafiq vaxtlarda valideyn yığıncaqları keçirmək məqsədəmüvafiqdir. Belə yığıncaqlar şəraitdən asılı olaraq bir, yaxud bir neçə müvafiq sinif valideynləri ilə təşkil oluna bilər. Bütün bu deyilənlərlə yanaşı, məktəbdə valideyn komitəsi (Valideyn-Müəllim Assosiasiyaları) yaratmaq vacibdir. Valideyn komitəsi həm ümumməktəb, həm də siniflər üzrə yaradılır, ilin əvvəlində hər sinfin valideyn iclasında 3 -5 nəfərdən ibarət komitə seçilir. Seçilənlərdən biri sədr, digəri müavin olmaqla il ərzində sinifdə təlim-tərbiyə işlərinin keyfiyyətli təşkilində müəllimin, eləcə də valideynlərin yaxın köməkçisinə çevrilir. Məktəb valideyn komitəsi dərs ilinin əvvəlində ümumməktəb valideyn iclasında yaradılır; yaxud əvvəlki ildən mövcud olan komitənin heyətində, əgər vacibdirsə, dəyişiklik edilir. O, hər sinfin valideyn komitəsinin ən fəal nümayəndələrindən yaradılır. Bu komitə məktəbin bütün işlərində pedaqoji kollektivlə valideynlər arasında səmərəli fəaliyyət göstərir.

Valideynlərlə əlaqə əvvəllər həm də yaşayış yerlərində, evlər idarələrində, məktəb mikrorayonunda aparılırdı. Beləliklə, məktəb uşaqların təlim və tərbiyəsi işinə ictimaiyyəti də cəlb edirdi. İndi bu ənənə müəyyən qədər pozulmuşdur. Məktəb – ailə - ictimaiyyət həlqəsi zədələnmişdir. İctimaiyyətdə nəinki özgənin, hətta öz yaxınlarının, qonşusunun övladına da biganəlik yaranmışdır. Uşaqlar məktəbdən kənarda pis təsirlərdən, demək olar ki, qorunmurlar. Burada efir və ekranlardan müntəzəm olaraq qeyri-mütəxəssiscəsinə yerli-yersiz

səslənən azadlıq, müstəqillik, insan hüquqları şüarlarının rolu var.

Ona görə də məktəb ailələrlə əlaqəyə daha ciddi önəm verməklə ictimaiyyətlə əlaqəyə yollar tapmalıdır. Bunun da yolu məktəbin nüfuzundan və təşəbbüskar valideynlərlə iş birliyindən keçir; onlarla əl-ələ verib məktəb mikrorayonundakı mötəbər ziyalıları, pedaqoji səriştəsi olan ağsaqqal və ağbirçəkləri, təqaüdçüləri məktəb tədbirlərinə, yığıncaqlara dəvət etmək, həm şagird, həm də müəllim kontingenti ilə ünsiyyətlərini yaratmaq mümkündür. Nümayəndələr elə ilk dəvətdən gərəkliklərini görüb, duyub həvəslənər, dədə-babadan qalma vərdişləri ilə böyüyən nəslin düzgün istiqamətdə pərvərişinə kömək edərlər. Eləcə də möhkəm özüllü tarixi mexanizm yenidən işə düşər, yaş əndazəsini adlayıb hamının qayğısına çevrilər.

Nəticədə şagirdlər məktəbdən kənarda da qayğı ilə əhatələnərlər. Bəs dəvətlər nə vaxt ola bilər?

— Müzakirələr, görüşlər, bayramlar, müvafiq fənn axşamları və digər tədbirlər keçirilərkən. Bu zaman onlar xatirələr danışar, çıxış edər, hansısa məsələyə münasibət bildirə bilərlər. Beləliklə, pedaqoji prosesə daxil olarlar və məktəbdə ictimaiyyətlə əlaqə şurası yaranar. Bu sahədə tədqiqatlar aparmış alimlərin fikirlərinə istinadən deyə bilərik ki, valideyn komitələri və ictimaiyyət şuraları uşaq və yeniyetmələrlə iş prosesində məktəbin tövsiyəsi ilə aşağıdakıları əsas götürməlidir:

1. Gənc nəslə həyatın qanun-qaydalarını dərk etdirmək, hüquqlarını bilməklə yanaşı, vəzifələrini də dərk etmələrinə nail olmaq.
2. Yeniyetmələri qanuna, birgəyaşayış qaydalarına, davranış və hüquq normalarına hörmət və məhəbbət ruhunda tərbiyə etmək, onlarda Vətəni müdafiəyə hazırlıq hissi formalaşdırmaq.
3. Uşaq və yeniyetmələrdə mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi qayğısına qalmaq.
4. Böyüyən nəslin həyati problemləri, mənəvi dünyası, özünüdərki ilə bağlı həyəcan doğuran yeni bədii əsərləri izləmək, müəllimli-şagirdli oxumaq, valideynlər, ictimaiyyət nümayəndələri, imkan varsa, müəlliflə birgə müzakirə etmək; beləliklə, həyati burulğanlara qarşı şagirdlərin gözünü açmaq və s. Sinifdənxaric və məktəbdənkənar işlərdən danışarkən qeyd etdik ki, məktəb şagirdlərin tərbiyəsi işinin mükəmməlləşməsi üçün uşaq kitabxanaları, uşaq teatrları, uşaq və gənclər idman məktəbləri, gənc texniklər stansiyaları və digər qurumlarla da əlaqə saxlamalıdır.

Çünki belə məktəbdənkənar tərbiyə müəssisələri məktəbin işinə kömək edir. Təhsil tariximizdə “Məktəbə və ailəyə yardım şuraları” yaradılması təcrübəsi var. Həmin şuralar istehsal müəssisələrində yaradılırdı. Hər müəssisə bir məktəbi hamiliyə götürürdü və ictimai kömək olaraq böyüyən nəslin tərbiyəsini özünün vəzifəsi sayırdı. Belə faydalı ənənənin bu gün də davam etməsi olduqca vacibdir.

**Məqalənin aktuallığı.** Məktəbdə təlim-tərbiyə prosesini düzgün şəkildə istiqamətləndirmək üçün müəllim-şagird-valideyn prosesini düzgün qurmaq lazımdır. Buna görə pedaqoji üçlük olan müəllim-şagird-valideyn münasibətləri düzgün elmi pedaqoji əsaslarda qurulmalıdır. Məqalə də məhz bu kimi məsələlərin araşdırılması baxımından aktual əhəmiyyət kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, şagirdlərdə təlimə məsuliyyətli əməyin formalaşdırılması üçün müəllim və valideyn onların təlim və tərbiyəsində mənfi halları müəyyənləşdirilməsi ilə yanaşı, həm də onların həlli yolları təklif olunur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ümumtəhsil məktəblərinin müəllimləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Bədəlova Ə.S. Təlim-tərbiyə. Bakı, 2015.
2. İsmixanov M.A. Pedaqogikanın əsasları. Bakı, 2013.
3. Rüstəmov F.A. Pedaqogika. Bakı: Elm və təhsil, 2012.
4. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı, Çaşıoğlu, 2006.
5. Mehdizadə M.M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı, 1982.

**Ш. Юсифова**

## Взаимное сотрудничество классного руководителя с родителям в формирование ответственной отношений к обучению школьников младших лет

## Резюме

Для организации учебно-воспитательной работы, сотрудничество учителя с родителя должен формироваться на правильном основе. Воспитательное влияние в школе и в семье должно сопоставляться и дополняться друг друга. Во время учение и других воспитательных влияний надо соблюдать единству студентов.

**Sh. Yusifova**

## Little adult of the pupils form-master and united collaboration of the parent to training in forming of responsible attitude

## Summary

Collaboration of teacher and parent must be built for organizing process of training and upbringing in the correct basic. Educational influences shown in the school and family must correspond and he must complete one by one. Unity is expectable in demands in learning and time of other educational influences.

**Redaksiyaya daxil olub:** 13.03.2019